# Azərbaycan unikal dünyəvi ölkədir

## İsrailli ekspert: «*Tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətinin mühüm əsaslarından biri olaraq qalmaqdadır*»

**«Azərbaycan əsl multikulturalizm və tolerantlıq, sivilizasiyalararası və dinlərarası dialoq nümunəsidir».** Bunu İsrail eksperti, "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut deyib.

**O, tarixi faktlardan söz açaraq bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradılandan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirildi:** "Nazirlər Şurası bu faciəni təhqiq etmək məqsədi ilə 1918-ci il iyulun 15-də fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, Şamaxıdakı vəhşiliklərin ilkin mərhələsini, ermənilərin İrəvan quberniyası ərazisində törətdikləri ağır cinayətləri araşdırdı. Xarici İşlər Nazirliyi bu gerçəklikləri dünya ictimaiyyətinə çatdırmaq üçün xüsusi struktur yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti 1919 və 1920-ci illərin 31 mart tarixini matəm günü elan etdi. Bu, azərbaycanlıların soyqırımı prosesinə ilk siyasi qiymət vermək cəhdi idi. Amma Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi".

**İsrailli ekspert Ermənistan-Azərbaycan münaqişəsinin əsl səbəbləri üzərində dayanaraq qeyd edib ki, 1988-ci ildə ermənilər Azərbaycana qarşı açıq-aşkar ədavət siyasətinə keçdilər:** «Qarabağda iki azərbaycanlının qətlə yetirilməsi və Topxana meşəsinin qırılması münaqişəni daha da alovlandırdı, onu silahlı qarşıdurma müstəvisinə keçirdi. Hər şey problemin çox ciddi olduğunu göstərirdi. Hadisələr ildırım sürəti ilə elə inkişaf edirdi ki, azərbaycanlılar nə ermənilərin verdiyi bəxşişlər fonunda münaqişəyə biganəlik nümayiş etdirən Qorbaçovu anlamağa, nə ərazisinin böyük bir hissəsinin faktiki olaraq nəzarətdən çıxmasının səbəblərini, nə də o vaxtkı hökumətin etinasız davranışını anlamağa macal tapırdılar. Münaqişənin coğrafiyası isə günbəgün genişlənirdi. 1989-cu ildə Ermənistan SSR-in Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxması və Ermənistan SSR-in tərkibinə qatılması haqqında heç bir qanuni əsası olmayan qərar qəbul etdi. Bu, faktiki olaraq Azərbaycan ərazilərinin qəsb edilməsi demək idi. Həmin vaxtdan ermənilər mübarizə taktikasını hərbi təcavüz müstəvisinə keçirdilər və bu nöqteyi-nəzərdən Azərbaycanda keçirilən etiraz aksiyaları artıq proseslərin inkişafı istiqamətini dəyişdirmək iqtidarında deyildi. Ermənilərin təcavüzkar siyasətinin həyata keçməsində, şəksiz ki, məhz xarici qüvvələr böyük rol oynamışdılar. Bu baxımdan o vaxtkı SSRİ rəhbərliyinin səyləri diqqət çəkirdi. Sovet ordusunun 1990-cı ildə Bakıda keçirdiyi hərbi əməliyyatlar bunun növbəti təsdiqi oldu. Dağlıq Qarabağın ermənilər tərəfindən işğal edilməsinə qarşı etiraz aksiyaları sovet əsgərlərinin gülləlləri ilə yatırıldı».

**Arye Qut öz moderatorluğu çərçivəsində erməni faşistlərinin 1992-ci ilin fevralında Xocalı şəhərində törətdikləri kütləvi qanlı qırğın haqqında danışaraq deyib ki, 1992-ci ildən başlayaraq erməni qruplaşmalarının hərbi əməliyyatlar coğrafiyası daha da genişləndi və Azərbaycanın rayonları bir-birinin ardınca ermənilər tərəfindən işğal edildi:** «1992-ci ildə Xocalıda törədilən dəhşətli soyqırımı erməni hərbi dəstələrinin törətdiyi vəhşiliklərin miqyası barədə real təsəvvür yaradır. Bu faciənin tükürpərdici və amansız səhnələri Azərbaycanın qəlbində əbədi sağalmaz yaraya çevrilib. Bu facia bütün bəşəriyyət əleyhinə cinayətdir. Erməni silahlı qüvvələrinin və muzdlu dəstələrinin şəhəri tərk etməyə macal tapmamış xocalılıların heç birinə aman verməməsi artıq tarixi faktdır və Xocalı şəhərinin mülki əhalisinin biləkdən kütləvi şəkildə məhv edilməsinin səbəbi yalnız onların azərbaycanlı olması idi. Hazırda Ermənistanda yüksək vəzifələr tutan adamlar – Seyran Ohanyan, Serj Sarkisyan, habelə Robert Koçaryan və başqaları bu soyqırımının günahkarları kimi beynəlxalq məhkəmə qarşısında durmalıdırlar. Cinayət cəzasız qalmamalıdır, çünki cəzasızlıq yeni-yeni cinayətlər doğurur. Dünya ictimaiyyəti hərbi-siyasi təcavüzə görə Ermənistana ittihamlar irəli sürməlidir».

**Ekspert vurğulayıb ki, Ermənistan prezidenti Serj Sarkisyanın səmimi etirafını xatırlamağa dəyər. S.Sarkisyan həyasızcasına deyib:** "Azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi məhz Xocalıda qırdıq".

**A.Qut 1996-cı ildə çap olunmuş "Ruhumuzun canlanması" kitabında Xocalı soyqırımına haqq qazandıran Zori Balayanın etiraflarını da diqqətə çatdıraraq deyib:** "Terrorçu Balayan kitabında ermənilərin Xocalıda dinc azərbaycanlılara qarşı törətdikləri soyqırımını, təhqir və həqarətləri fəxrlə sadalayıb. Bu cinayətkar və qatı şovinist utanıb-qızarmadan bəyan edib ki, ermənilərin Xocalıda törətdikləri ilə hər bir erməni qürur duymalıdır. Bu faktlar sübut edir ki, Xocalı şəhərində dinc mülki əhalinin düşünülmüş şəkildə məhv edilməsi onları təkcə azərbaycanlı olduqlarına görə kütləvi qırmaq məqsədi daşıyıb. Xocalıda əmrlər verən məhz bu adamlar beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər".

**İsrail ekspertinin fikrincə, Ermənistan ilə ağır və qanlı ərazi münaqişəsinə və ərazisinin 20 faizinin işğal edilməsinə, bir milyondan çox qaçqın və məcburi köçkününün olmasına baxmayaraq, ikili standartlardan əziyyət çəkən və çox mürəkkəb və kövrək geosiyasi əhatədə yerləşən Azərbaycan Respublikası Cənubi Qafqazın hamı tərəfindən qəbul edilən regional lideri olmaqla bərabər, həm də həqiqi sivilizasiyalararası və dinlərarası dialoq nümunəsidir:** "Ancaq etnik təmizləməyə və təcavüzə baxmayaraq, tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətinin mühüm əsaslarından biri olaraq qalmaqdadır. Bu baxımdan Azərbaycan unikal dünyəvi ölkə, islam dünyasının yüksək iqtisadi sürətlə inkişaf edən, Qərb praqmatizminin Şərq qonaqpərvərliyi və ənənələri ilə sıx çulğaşdığı inkişaf mayakıdır. Azərbaycan bir çox dinlərin və xalqların nümayəndələrinin vətəni olub və olacaq. Qədim Azərbaycan torpağında yəhudilik və islam, atəşpərəstlik və xristianlıq mövcud olub. Elə bu günün özündə bu torpaq tolerantlığa və dini dözümlülüyə misli görünməmiş cəhdlər göstərir. Ölkənin yəhudi icmasına səmimi qardaşlıq münasibəti Azərbaycan tolerantlığının parlaq nümunəsidir. Azərbaycanda heç vaxt antisemitizmin olmadığını və yəhudilərin heç vaxt özlərini əcnəbi hiss etmədiklərini vurğulamaq lazımdır. Azərbaycan Prezidenti İlham Əliyevin himayədarlığı ilə iki sinaqoq və Cənubi Qafqazda ən iri yəhudi təhsil mərkəzi inşa edilib. Bundan əlavə, ölkədə ilk yəhudi muzeyi inşa etmək planlaşdırılır. Qırmızı Qəsəbə dünyada yəhudilərin yığcam yaşadığı yeganə unikal yerdir, Azərbaycanın əsl qürur mənbəyidir. İsrail Dövləti Azərbaycan rəhbərliyinin və şəxsən Azərbaycan Prezidentinin yəhudilərə dünyada nümunəsi olmayan səmimi və bənzərsiz münasibətini yüksək qiymətləndirir. İnsanların təkcə eyni dinin başqa bir cərəyanına məxsus olmaları səbəbindən məhv edildiyi bu zalım və qanlı-qadalı dünyamızda biz İsraildə müasir, sivil və güclü Azərbaycanın həqiqi və keyfiyyətli nümunəsini müşahidə edir və dəyərləndiririk. Azərbaycan əslində islam dünyasının bir çox ölkələrinə həqiqi bir örnək, bir növ tərəqqi və inkişaf mayakı ola bilər".

**NATİQ**